

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 157 (21.309)

13 avqust 2015-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Sığorta fəaliyyəti, görülmüş işlər və qarşıda duran vəzifələr müzakirə olunub



*Avqust ayının 12-də Naxçıvan Şəhər İcra Hakimiyyətinin akt zalında "Sığorta fəaliyyəti, görülmüş işlər və qarşıda duran vəzifələr" mövzusunda tədbir keçirilib.*

Tədbiri giriş sözü ilə Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov açaraq Naxçıvan şəhərində sığorta sahəsində görülmüş işlərdən bəhs edib. İcra başçısı sığorta olunmağın vacibliyindən danışaraq sığortanın inkişaf edən cəmiyyətin tələbi olduğunu bildirib. Qeyd olunub ki, sığorta hər hansı gözlənilməz hadisə və ya qəzadan zərərçəkən insanların maddi vəziyyətini bərpa etmək, zərərləri aradan qaldırmaq üçün bir vasitədir.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin baş direktoru Hikmət Əsgərov çıxış edərək muxtar respublikamızda sığorta fəaliyyətinin müasir tələblərə uyğun şəkildə təkmilləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlərdən bəhs edib. Bildirib ki, 30 noyabr 2011-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində muxtar respublikada sığorta fəaliyyəti ələ qarşı keçirilən müşavirə Naxçıvan Muxtar Respublikasında sığortanın inkişafı üçün dönüş nöqtəsi olub. Çıxışda qeyd edilib ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə Naxçıvan şəhəri üzrə sığortahaqlarının toplanması 11 faiz artıb. Hikmət Əsgərov diqqətə çatdırıb ki, daşınmaz əmlakın icbari sığortası, avtonəqliyyat sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə 2014-cü illə müqayisədə bağlanılmış müqavilələrin sayı artsa da, bəzi vətəndaşlar tərəfindən sığorta müqavilələri bağlanılmayıb. Avtonəqliyyat sahiblərinin mülki məsuliyyətinin icbari sığortası, daşınmaz əmlakın icbari sığortası, ev əmlakının sığortası, fərdi qəza sığortası üzrə də zərərçəkənlərə müxtəlif həcmdə sığorta ödənişləri verilib.

Qeyd olunub ki, qarşıda duran əsas vəzifə ondan ibarətdir ki, bütün sığorta növlərini inkişaf etdirməklə hər bir hüquqi və fiziki şəxs üçün gözlənilməz hadisələrə qarşı etibarlı sığorta təminatı yaradılsın.

Sonra Naxçıvan Şəhər Polis İdarəsi Dövlət yol polisi bölməsinin rəisi Rəşadət Əliyev, Naxçıvan Şəhər Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin rəisi Şahid İbrahimov görülmüş işlər barəsində məlumat veriblər.

## Naxçıvan şəhərində smartkarttipli elektrik sayğacları quraşdırılır

*Naxçıvan şəhər əhalisinin etibarlı elektrik enerjisi ilə təmin olunması üçün kompleks tədbirlər həyata keçirilmişdir.*

Naxçıvan Şəhər Elektrik Şəbəkəsinin direktoru İqrar Əliyevdən aldığımız məlumata görə, transformator yarımstansiyalarında əsaslı və cari təmir işləri aparılmış, istismar müddəti başa çatmış elektrik dirəkləri yeniləri ilə əvəz olunmuş, dirəklərarası məsafələr normaya salınmış, kabellər, eləcə də məftillər yeniləri ilə əvəz edilmiş, 10/0,4 kilovoltluq elektrik xətləri çəkilib bərkidilmişdir.

Elektrik enerjisi verilişinin tənzimlənməsi, elektrik enerjisindən səmərəli istifadə edilməsi və sərf olunan elektrik enerjisinin dəyərinin ödənilməsi işi də diqqət mərkəzində saxlanılmış, cari ilin iyul ayından, ilkin olaraq, Naxçıvan şəhərinin Heydər Əliyev prospektində, Əziz Əliyev, "Təbriz", Atatürk, "İstiqlal" küçələrində, "Çənlibel", "Qoçüstü" məhəllələrində, Əliabad qəsəbəsində və digər ünvanlarda yerləşən təmir olunmuş ictimai yaşayış binalarında Türkiyə istehsalı olan smartkarttipli elektrik sayğaclarının quraşdırılmasına başlanılmışdır. Onu da qeyd edək ki, smartkarttipli elektrik sayğacları 20 ildən artıq təcrübənin məhsuludur. Yeni dizayn və istehsaldır.

Müasir texnologiyanın yeni tələblərinə uyğun şəkildə istehsal olunan sayğaclar elektron ölçmə sistemi ilə etibarlı bir elektrik enerjisi istifadəsinə imkan verməkdədir. LCD ekranın xüsusi dizaynda tərtib edilməsi və sayğacın buton sisteminə sahib olması tarifləri daha asan müəyyənləşdirməyə imkan verir.

Elektrik paylama müəssisələri tərəfindən periodik olaraq reallaşan indeks oxuma əməliyyatları sayğacların üzərində olan optik port vasitəsilə asanlıqla edilə bilər. Bu xüsusiyyətlə indeks oxuma əməliyyatına göz yanılmalarından qaynaqlana biləcək səhvlərin qarşısı alınmaqdadır. Smartkarttipli elektrik sayğacları istifadə müddəti 10 ili keçən litium batareyalarla təmin edilmişdir.

Məlumat üçün qeyd edək ki, smartkarttipli elektrik sayğacından istifadə zamanı aşağıdakılara əməl olunmalıdır. Xüsusi hesaba ödənilmiş məbləği sayğaca yükləmək üçün kart sayğaca salındıqdan sonra ekranda "ABUNƏ" mesajı görmədən kartı çıxarmaq olmaz. Kart tez çıxarsa, balans yüklənməyəcək. Smartkarttipli elektrik sayğacı quraşdırılarkən avans olaraq 50 kvt/saat (3 manat) yüklənir. Sonra abonentin yüklədiyi məbləğdən həmin vəsait çıxılır. Sayğacdan istifadə edərkən kartı sayğaca taxılı vəziyyətdə saxlamaq olmaz. Sayğacda olan balans miqdarı görünür və istifadə ilə əlaqədar olaraq bu balans azalır. Balans miqdarı ən az səviyyəyə gəldiyi zaman ekranda "KREDİ Az" mesajı görünür. Abonentin kartında kreditin bitməsi axşam saat $17^{00}$-dən bir sonrakı gün saat $10^{00}$-a təsadüf edərsə, abonentin elektrik enerjisi kəsilməyəcəkdir. Bayram günlərində abonentin borcu yaranarsa, smartkarttipli sayğac bağlanmayacaq və elektrik enerjisi kəsilməyəcəkdir.

Sayğacda vəsaitin olmasına nəzarət etmək lazımdır. Xüsusi hesaba ödənilmiş məbləğ qurtarmadan da əlavə vəsait yükləmək mümkündür. Abonent smartkarttipli sayğacın kartını itirdikdə yeni kartın alınması üçün 20 (iyirmi) manat ödəməlidir.

## Lisey binasında yenidənqurma işləri aparılır





Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamına əsasən yaradılan Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyi üçün ayrılan binada yenidənqurma işləri aparılır. Zirzəmi ilə birlikdə 5 mərtəbədən ibarət olan binada həyata keçirilən tikinti işlərinin keyfiyyətli olmasına ciddi önəm verilir. "Gəmiqaya" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən yenidən qurulan binanın fasadında üzləmə işləri gedir, interyerin dizaynı aparılır, kommunikasiya xətləri yenilənir. Elektron lövhəli siniflərin, laboratoriyaların, fənn kabinələrinin yaradılacağı binada yenidənqurma işlərinin sürətlə aparılması onu deməyə əsas verir ki, bina vaxtında müəllim və şagirdlərin istifadəsinə veriləcək.

İş icraçısı Umud İsayevin bildirdiyinə görə, 240 şagird yerlik binanın ikinci mərtəbəsində qəlib-beton işləri başa çatdırılıb.

Onu da bildirək ki, lisey üçün inşa olunan yataqxana binasının üçüncü mərtəbəsində işlər davam etdirilir.

Məlumat üçün bildirək ki, Şərur şəhərində təhsil sahəsində aparılan quruculuq işləri bununla məhdudlaşmayıb. Belə ki, şəhər 2 nömrəli tam orta məktəbin əvvəlki ikimərtəbəli binası müasir tələblərə cavab verməditindən bu məktəb üçün yeni binanın inşasına başlanılıb. Bina zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olacaq.

*Muxtar respublikamızda həyata keçirilən quruculuq tədbirlərinin bir qolunu da uşaq və yeniyetmələrin musiqi istedadını üzə çıxarmaq və inkişaf etdirmək üçün inşa olunan musiqi məktəblərinin binaları təşkil edir.*

## Sədərək kəndində musiqi məktəbi üçün yeni bina tikilir

Son illər Naxçıvan şəhərində, rayon mərkəzlərində və kənd yaşayış məntəqələrimizdə belə yeni ünvanların sayı artmaqdadır. Bu qayğıdan Sədərək rayonuna da pay düşüb. Hazırda rayonun Sədərək kəndində uşaq musiqi məktəbi üçün yeni bina inşa olunur. Tikinti işləri Sədərək Rayon Təsərrüfathesablı Tikinti-Quraşdırma İdarəsinin kollektivinə həvalə edilib. İdarədən aldığımız məlumata görə, inşaat işlərinə aprel ayından başlanılıb. İnşaatçılara yaradılan şərait hesabına ötən müddət ərzində tikinti işlərinin böyük qismi başa çatdırılıb. Binanın çardağı qurulub.

Hazırda binanın daxilində suvaq işləri həyata keçirilir. Keyfiyyət amilinə ciddi diqqət yetirilən bina zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarətdir. Burada sinif otaqları, musiqi nəzəriyyəsi və ədəbiyyatı kabinələri, iclas zalı və digər otaqlar müəllim və şagirdlərin ixtiyarına veriləcək. Məktəbdə müxtəlif şöbələrin fəaliyyəti üçün hərtərəfli şərait yaradılacaq.

İnşaatçılar binanın nəzərdə tutulduğu vaxtda təhvil verilməsi üçün səy və bacarıqlarını əsirgəmirlər.

## Duzdağda müalicə olunanlar göstərilən xidmətdən razıdırlar

*Naxçıvanın şöhrətini dünyaya yayan təbii ehtiyatları arasında Duzdağın müalicəvi duz şaxtaları xüsusi yer tutur. Regionda analoqu olmayan bu müəssisə hələ keçən əsrin 70-ci illərindən yuxarı tənəffüs yolları xəstəliklərindən əziyyət çəkənlərin müalicə mərkəzi kimi geniş şöhrət qazanmışdır.*





Burada yaradılmış yüksək komfort səviyyəli xidmət şəraiti son illərdə muxtar respublikamızın, ölkəmizin müxtəlif regionlarından, habelə dünyanın bir çox yerlərindən gələn bronxial-astma xəstələri üçün əlverişli imkanlar yaradır. Belə isti yay günlərində isə Duzdağda müalicə olunub, istirahət etmək istəyənlərin sayı daha da artır.

Duzdağ Fizioterapiya Mərkəzinə baş çəkəndə burada qələbəlik idi. Şaxtalarda və xidmət yerlərində əksəriyyəti uşaqlar olan xeyli sayda insan var idi. Mərkəzin baş həkimi Ruslan Süleymanovla söhbətimizdə bildirdi ki, hazırda burada müalicə iki növbədə təşkil olunmuşdur. 5 yaşına qədər uşaqlar və 65 yaşdan yuxarı yaşlılar, o cümlədən bəzi yanaşı xəstəlikləri olanlar gündüz növbəsində müalicə olunurlar. Baş həkim onu da dedi ki, indiyə qədər mərkəzə 115 nəfəri əcnəbi vətəndaş olmaqla, 3493 nəfər müraciət etmişdir. Mərkəzə ağırlaşma ilə daxil olmuş pasiyentlərin hamısı öz sağlamlığına qovuşaraq buranı tərk etmişlər. Müalicə olunanlar və onları müşayiət edənlər üçün burada nümunəvi xidmətlər təşkil olunmuş, Naxçıvan şəhərinə səhər və axşam saatlarında mütəmadi olaraq sanitar maşın və avtobuslarla nəqliyyat servisləri fəaliyyət göstərməkdədir. Baş həkim onu da əlavə etdi ki, Duzdağa gəlmək istəyən qonaqların əksəriyyəti indi artıq hava limanından birbaşa buraya gəlirlər. Belə qonaqlar isə həm ölkəmizin müxtəlif regionlarından, həm də dünyanın müxtəlif ölkələrindəndir. Ölkəmizin dənizsahili və rütubətli bölgələri kimi, Bakı və Sumqayıt şəhərləri ilə yanaşı, Quba, Qusar, Qəbələ, Şəmkir, Goranboy, Bərdə, Yevlax, habelə Lənkəran və Masallıdan mərkəzə müraciət edənlər daha çoxdur. Mərkəzin girişində tanış olduğumuz pasiyentlərlə qısa söhbətdən də bu qənaətə gəldik. 14 yaşlı qızı Humayı müalicəyə gətirmiş Masallı sakini Mətanət İbadova, azyaşlı oğlanları Azər və Əhmədin müalicəsi üçün Naxçıvana gəlmiş Bakı şəhər sakini Dəyanət Ağayev, habelə Gürcüstan vətəndaşı Könül Novruzova, Almaniyadan oğlu Elnuru müşayiət edən Almaniya vətəndaşı Elmar Səlimov, Rusiya vətəndaşları Süleyman Abbasov və Yasin Bağırov da mərkəzin xidmətlərindən və Naxçıvanda onlara yaradılmış şəraitdən razılıq etdilər.

**Xəbərlər şöbəsi**

*Muxtar respublikamızın sosial-iqtisadi inkişafının nəticəsi olaraq avtomobillərin sayı ildən-ilə artmaqdadır. Təbii ki, avtomobillərin sayının artması yollardakı hərəkətin intensivliyinə də öz təsirini göstərir. Bu isə, öz növbəsində, dövlət yol polisi əməkdaşlarının qayğılarını artırır. Bununla bağlı Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin rəisi, polis polkovnik-leytenantı Aydın Ağayevlə həmsöhbət olduq.*

# Yol infrastrukturunun müasirləşdirilməsi nəqliyyat vasitələrinin təhlükəsiz hərəkətini təmin edib

***– Avtomobil yollarında hərəkətin intensivliyinin və təhlükəsizliyinin təmin olunması üçün hansı profilaktik tədbirlər həyata keçirilir?***

– Avtomobillərin sayının artması yollarda hərəkətin intensivliyinin təmin edilməsi üçün əlavə tədbirlərin görülməsi zərurətini yaradır. Bu məqsədlə Naxçıvan şəhərinin Heydər Əliyev prospektində, Əziz Əliyev, Atatürk, İslam Səfərli, Cəlil Məmmədquluzadə, İdris Məmmədov, Sabir, "İstiqlal" küçələrində və "Çənlibel", "Qoçüstü", "Xətai" məhəllələrində, Naxçıvan Beynəlxalq Hava Limanına və Dəmiryol vağzalına gedən avtomobil yollarında, ümumilikdə, 19 ədəd işıqfor quraşdırılmışdır. Bu da hərəkətin intensivliyinin və piyadaların təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Eyni zamanda ayrı-ayrı ünvanlarda 20 ədəd kamera quraşdırılmışdır ki, bu da yol hərəkəti təhlükəsizliyinin təmin edilməsinə nəzarət etmək üçün geniş imkanlar yaradır.

Yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və nəqliyyat vasitələrinin sürətlə idarə olunmasının qarşısının alınması məqsədilə Naxçıvan-Sədərək respublika əhəmiyyətli avtomobil yolunda 3, Naxçıvan-Şahbuz avtomobil yolunda 1, Naxçıvan-Culfa avtomobil yolunda 2 ədəd sürətölçən qurğu, həmçinin xidməti fəaliyyətdə operativliyin təmin edilməsi və törədilmiş inzibati xətaların qeydə alınması üçün xidməti avtomobillərdə 25 ədəd bortkompüter quraşdırılmışdır.

Avtomobil yollarında hərəkətin təhlükəsizliyinin təmin olunması üçün müasir texniki avadanlıqların tətbiq edilməsi ilə yanaşı, əhalinin maarifləndirilməsi də mühüm əhəmiyyətli sahə kimi diqqət mərkəzində saxlanılmış, "Diqqət, uşaqlar", "Yollarda həmrəy olaq, təhlükədən uzaq olaq!" və sair adlar altında müxtəlif reydlər və aylıqlar keçirilmişdir. Bununla yanaşı, dövlət yol polisi əməkdaşları tərəfindən ayrı-ayrı məktəblərdə, ictimaiyyət arasında, idarə, müəssisə və təşkilatlarda yol hərəkəti təhlükəsizliyi ilə bağlı maarifləndirici söhbətlər aparılmışdır. Aparılan maarifləndirici söhbətlərə baxmayaraq, hələ də yol hərəkəti qaydalarını pozan və qəza halları yaradanlar arasında sürücülərlə yanaşı, piyadalar da var. Yol hərəkəti qaydalarını pozan vətəndaşlar yol polisi əməkdaşları tərəfindən saxlanılarkən üzərlərində şəxsiyyət vəsiqəsinin olmadığını bəhanə edərək cərimə sanksiyasından yayınmağa çalışır və ya özləri haqqında səhv məlumat verirdilər. Bu da işimizi çətinləşdirirdi. Dövlət Yol Polisi İdarəsinin istifadəsinə verilmiş planşetlər bu çətinlikləri aradan qaldıraraq işimizi xeyli asanlaşdırıb. Planşetlər imkan verir ki, vətəndaşın kimliyi haqqında verdiyi məlumat yoxlanılsın, piyadanın üzərində sənədləri olmadan belə, həmin qaydanı pozan vətəndaş üçün protokol tərtib edilsin. Qeyd edim ki, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə haqqında protokol yazılmış vətəndaşlar bu cəriməni yerində POS-terminal və yaxud bank vasitəsilə ödəyə bilərlər. Əks halda, vətəndaş məhkəmə məsuliyyətinə cəlb olunur.

***– Nəqliyyat vasitələrinin texniki baxışdan keçirilməsi haqqında yeniliklərlə bağlı oxucularımıza məlumat verərdiniz.***

–Yol hərəkəti təhlükəsizliyinin təmin olunmasında əsas vəzifələrdən biri də muxtar respublikamızda qeydiyyatda olan nəqliyyat vasitələrinin texniki baxışa cəlb edilməsi və onların texniki cəhətdən istismara yararlılığının yoxlanılmasıdır. Son illər Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin Qeydiyyat-imtahan və texniki baxış şöbəsinin müasir avadanlıqlarla təmin olunmuş avtomobillərin müayinə mərkəzinin istifadəyə verilməsi avtomobillərin yüksək səviyyədə texniki müayinədən keçirilməsinə əlverişli şərait yaratmışdır. Bu istiqamətdə işlər uğurla davam etdirilmiş, ötən il Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin Şərur Rayonlararası Müayinə Mərkəzi, cari ildə isə Culfa Rayonlararası Müayinə Mərkəzi istifadəyə verilmiş, Ordubad Rayonlararası Müayinə Mərkəzinin tikintisi davam etdirilir. Əvvəllər muxtar respublikada bir müayinə mərkəzi fəaliyyət göstərirdi. Lakin avtomobillərin sayının artması yeni müayinə mərkəzlərinin yaradılmasını zəruri etmişdir. Şərur və Culfa Rayonlararası Müayinə mərkəzlərinin istifadəyə verilməsi sakinlərin rahatlığının təmin olunmasına, onların büdcələrinə və vaxtlarına qənaət etmələrinə imkan verir. Artıq bu ərazidə yaşayan insanlar Naxçıvan şəhərinə gəlmədən müayinə mərkəzində öz nəqliyyat vasitələrini texniki baxışdan və sığorta qeydiyyatından keçirə bilirlər.

"Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 30-cu maddəsinə əsasən, icazə verilən maksimum kütləsi 3,5 tondan artıq olan yük avtomobilləri, avtobuslar, həmçinin təhlükəli yüklərin daşınması üçün xüsusi təyinatlı nəqliyyat vasitələri ildə bir dəfə, icazə verilən maksimum kütləsi 3,5 tondan az olan yük və minik avtomobilləri istehsal olunduğu vaxtdan 4 il keçdikdə texniki baxışa təqdim olunur. Həmin avtomobillər istehsal tarixindən ötən 10 ilədək müddətə 2 ildə bir dəfə, istehsal tarixi 10 ildən yuxarı olduqda isə ildə bir dəfə dövlət texniki baxışdan keçirilməsi üçün təqdim edilməlidir. Qanunvericiliyə uyğun olaraq, respublika ərazisində daimi və ya müvəqqəti qeydiyyatda olan nəqliyyat vasitələrinə və qoşqulara dövlət texniki baxışı ildə bir dəfə – yanvar ayının 1-dən oktyabr ayının 31-dək olan müddətdə həyata keçirilir. Məlumat üçün qeyd edim ki, "VAZ", "QAZ", "ZAZ", "UAZ" markalı və digər MDB istehsalı olan avtomobillər üçün yanvar ayının 1-dən iyun ayının 1-dək, xarici ölkələrdə və onların baza modelləri əsasında MDB ölkələrində istehsal olunan minik avtomobilləri üçün iyun ayının 1-dən avqust ayının 1-dək, yük avtomobilləri və avtobuslar üçün avqustun 1-dən oktyabrın 31-dək texniki baxış keçirilməsi müddəti müəyyənləşdirilmişdir.

Muxtar respublikamızda daimi qeydiyyatda olan hüquqi və fiziki şəxslərə məxsus nəqliyyat vasitələrinin qanunvericiliyə uyğun olaraq texniki baxışdan keçirilməsi diqqət mərkəzində saxlanılmış, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin Qeydiyyat-imtahan və texniki baxış şöbəsinin müayinə mərkəzində, Şərur və Culfa Rayonlararası Müayinə mərkəzlərində, ümumilikdə, 9 min 419 nəqliyyat vasitəsi texniki baxışdan keçirilmişdir.

***– Muxtar respublikamızda yol hərəkəti qaydaları pozuntusuna qarşı mübarizə tədbirləri gücləndirilib. Bu, yol-nəqliyyat hadisələrinin azalmasına necə təsir göstərib?***

– Dövlət yol polisinin fəaliyyət istiqamətləri yol-nəqliyyat hadisəsinin qarşısının alınması və nəqliyyat vasitələrinin texniki baxışa cəlb edilməsi ilə yanaşı, həm də yol hərəkəti qaydaları pozuntularına qarşı mübarizənin aparılmasından ibarətdir. Belə ki, cari ilin birinci yarısında yol polisi əməkdaşları tərəfindən 11 min 601 yol hərəkəti qaydaları xətası, o cümlədən yolda müəyyən edilmiş sürət həddinin aşılmasına görə 1694, yol nişanlarının tələblərinə riayət etməyən 2421, sürücülük hüququ olmadan nəqliyyat vasitəsini idarə edən 56, nəqliyyat vasitəsini vəkalətsiz idarə edən 279, nəqliyyat vasitəsini texniki baxışdan keçirmədən idarə edən 198, nəqliyyat vasitəsinin hərəkəti zamanı sükan arxasında telefonla danışan 57, təhlükəsizlik kəmərindən istifadə etməyən 615, avtonəqliyyat vasitələrini sərxoş vəziyyətdə idarə edən 182 nəfər aşkar edilərək barələrində inzibati qaydada tədbir görülmüşdür. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələri ilə inzibati məsuliyyətə cəlb edilmiş şəxslərin cərimə edilməsi barədə qərar çıxarılaraq həmin şəxslərə bildirişlər verilmiş, yol hərəkəti qaydalarını pozan sürücülər barəsində qəbul edilmiş qərarlar üzrə cərimələrin məbləği 478 min 64 manat olmuşdur. Onu da qeyd edim ki, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsində və idarənin balansında olan 5 ədəd xidməti avtomobildə POS-terminallar quraşdırılmış, cərimələrin POS-terminallar vasitəsilə ödənilməsinə əlverişli şərait yaradılmışdır. Sürücülər arasında aparılan maarifləndirici söhbətlər öz nəticəsini vermiş, cərimələrin 72 min 890 manatı POS-terminallar vasitəsilə ödənilmişdir.

Həyata keçirilən tədbirlər yol-nəqliyyat hadisələrinin azalmasına müsbət təsir göstərmiş, ötən ilin müvafiq dövrü ilə müqayisədə 2015-ci ilin birinci yarımili ərzində muxtar respublikanın avtomobil yollarında yol-nəqliyyat hadisələrinin sayı 5 fakt, yəni 62,5 faiz azalmışdır. Onu da qeyd edək ki, ağır yol nəqliyyat hadisələrinin başvermə səbəbləri təhlil edilərək müəyyən olunmuşdur ki, fərdi avtomobil sahiblərinin yorğun və yuxusuz vəziyyətdə ailə üzvləri ilə yola çıxmaları hadisələrin baş verməsinə və onların ağırlıq dərəcəsinə birbaşa təsir göstərir. Hazırda bu istiqamətdə sürücülər arasında maarifləndirici tədbirlər həyata keçirilməkdədir.

***– Avtomobillərin qeydiyyata alınması və sürücülük vəsiqələrinin verilməsi işi vaxtında aparılırmı?***

– Avtomobillərin qeydiyyata alınması, qeydiyyat nişanı, qeydiyyat şəhadətnaməsi və sürücülük vəsiqələrinin verilməsi işi də diqqət mərkəzindədir. Cari ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin Qeydiyyat-imtahan və texniki baxış şöbəsi tərəfindən 1253 ədəd qeydiyyat nişanı, 2993 ədəd qeydiyyat şəhadətnaməsi, 2425 ədəd sürücülük vəsiqəsi verilmişdir. 562 ədəd nəqliyyat vasitəsi ilkin, 2094 ədəd nəqliyyat vasitəsi isə təkrarən qeydiyyata alınmışdır. 434 nəqliyyat vasitəsi qeydiyyatdan çıxarılmış, 215 avtomaşın çıxdaş olunmuşdur.

***– Sonda oxucularımıza nə demək istərdiniz?***

– Son illər muxtar respublikamızda digər sahələrdə olduğu kimi, yol infrastrukturunun yeniləşməsi istiqamətində də kompleks tədbirlər həyata keçirilmiş, avtomobillərin maneəsiz hərəkətinə əlverişli şərait yaradılmışdır. Avtomobil yollarının keçdiyi ərazinin şəraitinə uyğun sürət həddi qoyulmuş, işıqforlar quraşdırılmış, piyada keçidləri müəyyənləşdirilmişdir. Yaddan çıxarmaq olmaz ki, sürət həddini aşma, sürücülərin diqqətsizliyi və piyadaların keçidlərdən düzgün istifadə etməməsi avtomobil yollarında qəza halları yaradır, bəzən də ağır yol-nəqliyyat hadisəsi ilə nəticələnir. Bu da insanların sağlamlığına xəsarət yetirir və ya həyatına son qoyur. Gəlin özümüzü qorumaq və başqalarının həyatına təhlükə yaratmamaq üçün yol hərəkəti qaydalarına ciddi əməl edək!

***– Müsahibə üçün sağ olun.***

# Yüksəkkeyfiyyətli xidmət üçün hər cür şərait yaradılıb



Ölkəmizdə, o cümlədən muxtar respublikamızda həyata keçirilən uğurlu islahatlar iqtisadiyyatın gücləndirilməsinə əsaslı stimul olmuş, nəticədə, insanların sosial-rifah halı yüksəlib. Yaradılan şəraitin, artan iqtisadi imkanların nəticəsidir ki, bu gün muxtar respublikada insanlar yüksək texniki göstəricilərə malik rahat avtomobillərə, irimiqyaslı layihələri və genişmiqyaslı quruculuq tədbirlərini həyata keçirən ayrı-ayrı şirkətlər isə yaxşı manevr etmək imkanlarına malik maşın-mexanizmlərə və ağırtonnajlı yük avtomobillərinə daha çox üstünlük verirlər. Bu səbəbdən də muxtar respublikada xaricdə istehsal olunmuş müxtəlif markalı minik və yük avtomobillərinin, maşın-mexanizmlərin sayı xeyli artıb.

Həmin texnikalara keyfiyyətli servis xidmətləri göstərilməsi ciddi önəm verilən məsələlərdən biridir. Bu cəhətdən "Gəmiqaya Nəqliyyat" Məhdud Məsuliyyətli Cəmiyyətinin fəaliyyəti diqqətçəkicidir. Müəssisə bütün avtomobillərə, o cümlədən xaricdə istehsal edilmiş "Hyundai", "Mitsubishi", "KİA", "Opel", "Mercedes-Benz", "Mazda", "Toyota", "Nissan", "BMW", "Ford" və digər markalardan olan yük və minik avtomobillərinə servis xidmətlərinin göstərilməsi, lazımi ehtiyat hissələrinin alınıb muxtar respublikaya gətirilməsi məqsədilə yaradılıb. Naxçıvan şəhərində yaradılan müəssisənin ərazisi 6827,5 kvadratmetrdir. Burada inzibati bina, ehtiyat hissələrinin saxlanılması anbarı, müasir avadanlıqlarla təmin olunmuş laboratoriya, müxtəlif təmir sexləri tikilib, Almaniya, Yaponiya, Türkiyə istehsalı olan müasir texnoloji avadanlıqlar quraşdırılıb. 2011-ci ilin fevral ayından fəaliyyətə başlayan müəssisədə keyfiyyətli servis xidmətləri göstərilir.

Yük və minik avtomobillərinin təmiri sexində Almaniya istehsalı olan avadanlıqlarla təmin edilmiş avtomobillərin diaqnostik müayinə mərkəzi istifadəyə verilib. Kompüterdə əks olunan göstəricilərin surətləri çıxarılıb müştəriyə təqdim edilir və həmin nasazlıqlara uyğun servis xidmətləri göstərilir.

Boya sexində yük və minik avtomobillərinin qismən və ya tam şəkildə boyanması üçün havalandırma və istilik sistemi ilə təmin olunan, kompüterlə idarə edilən xüsusi qurğu quraşdırılıb. İlkin olaraq avtomobillərdən nümunələr götürülüb laboratoriyada analizdən keçirilir. Boyanın növü, tərkibi və rəngi müəyyənləşdirildikdən sonra laboratoriyanın göstəricilərinə uyğun boya hazırlanır. Boyanın vurulması və qurudulması xüsusi kabinədə aparılır ki, bu da görülən işin keyfiyyətində mühüm amildir.

Müəssisədə bütün markalardan olan yük və minik avtomobillərinin mühərriklərinin yenilənməsi üçün xidmət sahəsi tikilib istifadəyə verilib. Burada Türkiyə Respublikasının "Sarıtaş" firmasının istehsalı olan və kompüterlə idarəetmə mərkəzi ilə təmin edilən 20-yə yaxın müasir texnoloji avadanlıq quraşdırılıb. Müəssisəyə daxil olan mühərriklərin test yoxlanışından keçirilərək nasazlığı müəyyən edilir. Sonra isə mühərrikdə yaranmış problemin aradan qaldırılması üçün təyinatı üzrə ayrı-ayrı dəzgahlarda onun yenilənməsi prosesi həyata keçirilir.

2012-ci ilin sentyabr ayında Naxçıvan şəhərində Yük Avtomobil Park Kompleksi istifadəyə verilib. Naxçıvan dairəvi avtomobil yolunun kənarında inşa olunan, 3 min kvadratmetrdən çox geniş bir ərazini əhatə edən bu kompleksdə eyni vaxtda 120-dən çox yük avtomobilinə xidmət göstərilməsi üçün yüksək şərait yaradılıb. Yerli və beynəlxalq yük daşınması ilə məşğul olan sürücülərin, eləcə də kompleksin xidmətlərindən istifadə edən qonaqların rahatlığı üçün burada inşa olunmuş 2 korpuslu binanın ikinci mərtəbəsində moteltipli yataq otaqları istifadəyə verilib. Binanın birinci mərtəbəsində isə iaşə xidməti göstərilir.

Onu da qeyd edək ki, yeni texnoloji avadanlıqlarla təmin olunmuş "Gəmiqaya Nəqliyyat" Məhdud Məsuliyyətli Cəmiyyəti muxtar respublikamızda avtomobil nəqliyyatında yük daşınmasını müasir tələblərə uyğun quran və keyfiyyətli servis xidmətləri göstərən yeganə müəssisədir. Yerli və beynəlxalq yük daşınması ilə məşğul olan və yuxarıda adıçəkilən müəssisənin xidmətlərindən istifadə edən sürücülərdən Nadir Mənsimov, Qadir Bədəlov, Sabir Nəcəfov, Cabir Səfərov və başqaları qeyd etdilər ki, min kilometrlərlə məsafə qət edib ayrı-ayrı şirkətlərin mal-materiallarının daşınması ilə məşğul oluruq. Əvvəllər avtomobilləri yol kənarlarında saxlayıb elə maşının kabinəsində istirahət edir, yük maşınlarında yaranan hər hansı nasazlığı aradan qaldırmaq üçün Bakı şəhərində fəaliyyət göstərən servis xidmətlərindən mütəxəssis çağırmaq məcburiyyətində qalırdıq. Bu da əlavə xərcə, vaxt itkisinə, sifarişçi şirkətlərin mal-materiallarının vaxtında çatdırılmamasına səbəb olur, tərəflər arasında problemlər yaradırdı. Həmçinin Türkiyə-İran və əks istiqamətdə hərəkət edən ağırtonnajlı yük avtomobilləri Naxçıvan şəhərinin mərkəzindən keçdiyindən yollarda tıxaclar yaranırdı. Amma son illər tikilib istifadəyə verilən Naxçıvan-Sədərək, Naxçıvan-Culfa magistral avtomobil yolları və bu yolları birləşdirən Naxçıvan dairəvi avtomobil yolu yük və sərnişindaşıma xidmətinin yüksək səviyyədə qurulmasına və şəhərin mərkəzindən keçmədən yük daşınmasına əlverişli şərait yaradıb. Həmçinin Naxçıvan dairəvi avtomobil yolunun kənarında tikilib istifadəyə verilən "Gəmiqaya Nəqliyyat" MMC-nin müasir texnoloji avadanlıqlarla təmin olunmuş texniki xidmət sahələri əvvəllər üzləşdiyimiz problemləri aradan qaldırıb. Yük və minik avtomobillərində yaranmış texniki nasazlıqlar kompüterlə idarəetmə mərkəzi ilə təmin edilmiş ayrı-ayrı avadanlıqlarda yoxlanılır, nasazlıq və onu doğuran səbəblər müəyyənləşdirilir, təyinatı üzrə ayrı-ayrı bölmələrdə təmir edilir və yenilənən ehtiyat hissələrinə zəmanət verilir ki, bu da əsas şərtdir.

Həmsöhbət olduğum və bu müəssisənin xidmətlərindən istifadə edən hər kəs göstərilən xidmətdən razılığını bildirdi, yaradılan şəraitə görə minnətdarlığını ifadə etdi.

Səhifəni hazırladı: ✍ Kərəm HƏSƏNOV

# İranın Qərbi Azərbaycan Vilayəti geniş iqtisadi potensiala malikdir

İran İslam Respublikasının inkişaf edən bölgələrindən biri də Qərbi Azərbaycan Vilayətidir. Vilayətin iqtisadi potensialı ilbəil artır. Relyefinin, əsasən, düzənlik və dağlıq zonalardan ibarət olması burada aqrar sahənin inkişafı üçün geniş perspektivlər açır. Digər bir tərəfdən xarici ticarət əlaqələrinin genişləndirilməsi Qərbi Azərbaycan Vilayətini ölkənin ən qaynar bölgələrindən birinə çevirmişdir. Vilayətin ümumi ərazisi 43 min 660 kvadratkilometr, əhalisi, təxminən, 3 milyon 200 min nəfərdir. Əhalinin 53 faizi şəhərlərdə, 47 faizi isə kəndlərdə yaşayır. Burada 17 şəhər, 40 rayon, 38 şəhərtipli qəsəbə və 113 kənd vardır. Qərbi Azərbaycan Vilayətinin paytaxtı qədim yaşayış məskənlərindən olan Urmiya şəhəridir.

Qərbi Azərbaycan Vilayəti şimaldan və şimal-şərqdən Naxçıvan Muxtar Respublikası, qərbdən Türkiyə və İraq respublikaları, cənubdan Kürdüstan Vilayəti, şərqdən isə Şərqi Azərbaycan Vilayəti ilə həmsərhəddir. Vilayət Naxçıvan Muxtar Respublikası ilə 149 kilometrlik su sərhədinə malikdir. Yay aylarında orta temperatur 35 dərəcə təşkil edən Qərbi Azərbaycan Vilayəti ərazisində qış kəskin soyuq və qarla müşahidə olunur. Türkiyə və İraq sərhədləri boyunca əhatə olunan dağlardan axan çaylar bol su ehtiyatı yaradır. Burada çoxlu əkinəyararlı torpaq sahələri mövcuddur. Bütün bunlar da vilayəti ölkənin ən mühüm kənd təsərrüfatı və maldarlıq bölgələrindən birinə çevirmişdir. Təsadüfi deyil ki, Qərbi Azərbaycan Vilayəti meyvəçilik, üzümçülük və bal istehsalı üzrə ölkənin üç əsas vilayətindən biridir. Xüsusən alma və şəkər çuğunduru istehsalı üzrə ölkədə birinci yerdədir.

Qərbi Azərbaycan Vilayəti təbii ehtiyatları ilə zəngin bir bölgədir. Bu resurslardan səmərəli istifadə olunması emal və mədən sənayesinin inkişafına səbəb olmuşdur. Bu gün vilayət mədən sənayesi üzrə ölkədə yalnız Xorasan və Semnan vilayətlərindən geridə qalır. Burada sənayenin digər sahələrinin də inkişafına diqqət yetirilir. Bunun nəticəsidir ki, Qərbi Azərbaycan Vilayəti sənaye istehsalı üzrə ölkənin inkişaf etmiş bölgələrindən birinə çevrilmişdir. Burada illik istehsal gücü 4 milyon ton olan üç sement zavodu, 6 qənd, 26 süd və süd məhsulları istehsalı zavodu, 36 emal müəssisəsi və meyvə qablaşdırma zavodu, 1 polad istehsalı, 2 böyük petrokimya, qızıl və traktor istehsalı zavodları fəaliyyət göstərir. İstehsal olunan məhsullar yüksək ixrac potensialına malikdir. Həmçinin vilayətdə sənətkarlıq da yüksək inkişaf etmişdir. Burada müxtəlif əl işləri yüksək zövqlə hazırlanaraq satışa çıxarılır.

Qədim tarixə və zəngin mədəniyyətə malik olması Qərbi Azərbaycan Vilayətində turizmin inkişafı üçün geniş imkanlar açır. Yerli və xarici turistlər hər il vilayətin müxtəlif şəhər və kəndlərinə üz tutur, buranın geniş turizm potensialından yararlanırlar. Xüsusilə vilayətin mərkəzi olan Urmiya şəhəri turistlərin ən çox müraciət etdiyi yerdir. Şəhər YUNESKO-nun Mədəni İrs Siyahısına daxil edilmişdir.

Qərbi Azərbaycan Vilayətində 5 gömrük məntəqəsinin fəaliyyət göstərməsi onun iqtisadiyyatının inkişafında əsaslı rol oynayır. Məhz bu amil xarici ticarət dövriyyəsinin genişləndirilməsinə səbəb olmuşdur. Bu gün vilayətin Azərbaycan, Türkiyə, İraq, Türkmənistan, Pakistan, Hindistan, Rusiya və digər Avropa və Fars körfəzi ölkələri ilə geniş ticarət əlaqələri vardır. Təkcə 2013-cü ildə vilayətdə 1 milyard 400 milyon dollar dəyərində xarici ticarət dövriyyəsi olmuşdur ki, bunun da 680 milyon dolları ixracatın payına düşmüşdür. İxrac olunan məhsullar sırasında meyvə, sement və konserv məhsulları üstünlük təşkil edir. Ümumiyyətlə, Qərbi Azərbaycan Vilayəti sənaye və mədən məhsulları istehsalı üzrə ölkə ixracatının 4,5 faizini təşkil edir.

Maku Azad Ticarət və Sənaye Zonası Qərbi Azərbaycan Vilayəti ərazisində 500 min hektar ərazini əhatə edir. Türkiyə Cümhuriyyəti və Naxçıvan Muxtar Respublikası ilə sərhəddə yerləşən zonanın nəqliyyat, sənaye, ticarət və digər iqtisadi sahələr üzrə geniş imkanları vardır. Maku Azad Ticarət və Sənaye Zonasının qonşu ölkələrlə, xüsusən də Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə qarşılıqlı və faydalı əməkdaşlıq əlaqələri mövcuddur. İyirmi illik vergidən azadolma, vizasız giriş, heç bir gömrük rüsumu alınmadan sənaye maşınlarının idxalı, işçi qüvvəsinin mövcudluğu, sənaye və tikinti sahəsində ucuz və keyfiyyətli materialların əldə olunması, kənd təsərrüfatı, heyvandarlıq, turizm potensialının yüksək olması xarici investorların marağını cəlb edir və son illər zonada investisiya qoyuluşunda xeyli artım müşahidə olunmuşdur. İranın Türkiyə ilə ən böyük gömrük məntəqəsinin bu zonada yerləşməsi də ticarət imkanlarının artırılmasında mühüm əhəmiyyət daşıyır.

Naxçıvan Muxtar Respublikası ilə Qərbi Azərbaycan Vilayəti arasında geniş əlaqələr mövcuddur. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən əsası qoyulan bu əlaqələr bu gün uğurla davam etdirilir. Ulu öndərin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə qarşılıqlı əlaqələr ən yüksək səviyyəyə çatmışdır. Həmin dövrdə Şahtaxtı-Poldəşt gömrük-keçid məntəqəsinin fəaliyyətə başlaması və bazar münasibətlərinin formalaşması nəticəsində tərəflər arasında illik 10 milyon dollar ticarət dövriyyəsi olmuşdur.

Tarixi, mədəni, dini dəyərlər və mehriban qonşuluq prinsipi əsasında qurulan münasibətlər bu gün müxtəlif istiqamətlər üzrə daha da inkişaf etdirilir. 2011-ci ilin payızında Urmiya şəhərində beş gün müddətində Naxçıvan Muxtar Respublikasının ilk ticarət və sənaye sərgisi təşkil olunmuşdur. Qərbi Azərbaycan Vilayətinin muxtar respublikada ilk ticarət və sənaye sərgisi isə 2015-ci ilin 14-17 avqust tarixlərində Naxçıvan şəhərində keçiriləcəkdir. Sərgidə 60-dan çox istehsal və sənaye müəssisəsi təmsil olunacaqdır. Son illər qarşılıqlı səfərlər əlaqələrin genişləndirilməsində mühüm rol oynamışdır. 2011-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun vilayətə və 2014-cü ildə Qərbi Azərbaycan ostandarı cənab Qurbanəli Səadətin muxtar respublikaya rəsmi səfərləri əlaqələrin inkişafında yeni mərhələnin əsasını qoymuşdur.

Bu gün Naxçıvan Muxtar Respublikası ilə Qərbi Azərbaycan Vilayəti arasındakı əlaqələrin perspektivləri nikbinlik doğurur. Qarşılıqlı səfərlər əməkdaşlıq üçün yeni imkanlar açır, iqtisadi-ticarət əlaqələri genişləndirilir. Bu da münasibətlərin gələcəkdə də ikitərəfli formatda uğurla inkişaf etdiriləcəyindən xəbər verir.

**Mənsur AYRIM**
***İran İslam Respublikasının Naxçıvandakı Baş konsulu***

# Əlahiddə Ümumqoşun Ordu strateji yüksəkliklərdə etibarlı müdafiə sistemi qurub

*Bu, muxtar respublikamızın hərbi təhlükəsizliyinin təmini baxımından böyük əhəmiyyət kəsb edir*

***Ordu quruculuğu, onun döyüş və peşəkarlıq səviyyəsinin artırılması istiqamətində ümummilli liderimiz Heydər Əliyev tərəfindən həyata keçirilən məqsədyönlü işlər bu gün uğurla davam etdirilir. Silahlı Qüvvələrimizin döyüş qabiliyyəti yüksəldilir, maddi-texniki bazası möhkəmləndirilir, hərbçilərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür. Qürurla deyə bilərik ki, Naxçıvan Muxtar Respublikası ərazisindəki hərbi hissələrin də maddi-texniki təminatı və hazırlıq səviyyəsi günün tələbləri nəzərə alınaraq gücləndirilib, yüksək döyüş hazırlığı baxımından müasir dünya ordularından heç də geri qalmayan Əlahiddə Ümumqoşun Ordu muxtar respublikanın təhlükəsizliyinin qarantına çevrilib.***

Əlahiddə Ümumqoşun Ordu bütün döyüş tapşırıqlarını hər an layiqincə yerinə yetirməyə qadirdir.

Son illər muxtar respublikamızın hərbi təhlükəsizlik sistemini daha da gücləndirmək üçün tarixi əhəmiyyətə malik qərarlar qəbul olunub, lazımi addımlar atılıb. Müasir dövrün reallıqlarını nəzərə alan Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təkcə ölkəmiz üçün deyil, ümumilikdə, Cənubi Qafqaz regionu və bütün Türk dünyası üçün mühüm strateji məkan kimi böyük əhəmiyyət kəsb edən Naxçıvanın müdafiə qabiliyyətinin artırılması məqsədilə "Azərbaycan Respublikası Müdafiə Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2013-cü il 18 dekabr tarixli Fərmanına əsasən, 5-ci Ordu Korpusunun əsasında Əlahiddə Ümumqoşun Ordunun yaradılması da bunun ən bariz nümunəsidir. Ölkəmiz üçün böyük əhəmiyyətə malik olan bu dövlət sənədinin dəqiqliklə icrası nəticəsində Naxçıvanın müdafiə qabiliyyəti daha da artıb, bir mərkəzdən idarəetmə təkmilləşdirilib və nəticədə, daha effektiv müdafiə sistemi qurulub.

Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev qədim diyarda Əlahiddə Ümumqoşun Ordunun yaradılması barədə danışarkən deyib: ***"Ordu quruculuğu sahəsində aparılan islahatlar, Naxçıvanda Əlahiddə Ordunun yaradılması, bu ordunun ən müasir silah-sursat, texnika ilə təchiz edilməsi bizim dövlət siyasətimizdir. Naxçıvanın hərbi potensialı böyük dərəcədə möhkəmlənmişdir. Naxçıvan ordusu bu gün güclü ordudur. Naxçıvan ordusunun hərbi texnika ilə təminatı ən yüksək səviyyədə təşkil edilir. Bu da təbiidir, çünki Naxçıvan strateji yerdə yerləşir. Naxçıvan blokada şəraitində yaşayır və belə olan halda Naxçıvanın döyüş potensialı ən yüksək səviyyədə olmalıdır".***

Beynəlxalq hərbi ekspertlərin ümumi fikri belədir ki, istənilən ordunun döyüş qabiliyyətini, gücünü ancaq hərbi təlimlərdə və müharibədə müəyyənləşdirmək olar. Əlahiddə Ümumqoşun Ordunun istər hərbi təlimlərdə iştirakı zamanı nümayiş etdirdiyi döyüş qabiliyyəti, istərsə də təcavüzkar düşmənin təxribatlarına qarşı cavab zərbələri onun gücünü, qüdrətini göstərir. Bu il mayın 15-də Naxçıvan Muxtar Respublikasında keçirilən Azərbaycan-Türkiyə birgə hərbi təlimlərində Əlahiddə Ümumqoşun Ordu nizam-intizamı və silah-sursat təchizatı ilə NATO kimi qüdrətli hərbi-siyasi təşkilatda dünyanın supergücü olan Amerika Birləşmiş Ştatlarından sonra ikinci yerdə qərarlaşan, Avropada isə analoqu olmayan Türkiyə Silahlı Qüvvələri ilə eyni səviyyədə güc nümayiş etdirdi. Bu il iyunun 10-da – Milli Qurtuluş Günü ərəfəsində Əlahiddə Ümumqoşun Ordunun gecə şəraitində keçirdiyi taktiki təlimlər də şəxsi heyətin peşəkarlığının yüksək səviyyədə olduğunu sübuta yetirdi.

***"Ordunun gücü xidmət edən şəxsi heyətin ruh yüksəkliyindən asılıdır"***, – deyən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bildirmişdir ki, bugünkü hərbi təlimdə iştirak edən əsgər və zabitlərin qarşıya qoyulan tapşırıqları uğurla yerinə yetirməsi də onların döyüş hazırlığı ilə yanaşı, həm də ruh yüksəkliyini və vətənpərvərliyini bir daha nümayiş etdirdi.

Bu gün Əlahiddə Ümumqoşun Ordu əməliyyat-taktiki baxımdan yüksək döyüş hazırlığına malik olmaqla yanaşı, həm də muxtar respublikamızın hakim yüksəkliklərində etibarlı müdafiə sistemi qurub. Strateji yüksəkliklərdə müdafiə sisteminin etibarlı qurulması düşmənin hərəkət imkanlarını xeyli məhdudlaşdırır, istənilən təxribatlara qarşı adekvat cavab vermək imkanı yaradır. Əlahiddə Ümumqoşun Ordunun ətrafdakı ərazilərə maneəsiz nəzarət imkanı olması ona həm də istənilən hədəfi dəqiqliklə yox etmək imkanı verir. Təsadüfi deyil ki, düşmən ölkənin mətbuatı bu gün Azərbaycanın əsas ərazisindən ayrı salınmış Naxçıvan Muxtar Respublikasındakı Əlahiddə Ümumqoşun Ordudan söz açarkən əvvəlcə muxtar respublikanın təmas xəttindəki hakim yüksəkliyinə diqqəti yönəldir. Onlar Əlahiddə Ümumqoşun Ordunu işğalçı Ermənistanın hərbi təhlükəsizliyi üçün bir nömrəli təhdid hesab edir, Naxçıvanla sərhəddə yerləşən erməni hərbi postların böyük təhlükə ilə üz-üzə qaldıqlarını vurğulayaraq həyəcan təbili çalırlar.





Muxtar respublikamızın strateji yüksəkliklərində etibarlı müdafiə sisteminin qurulması, burada Vətənə ləyaqətlə xidmət edən əsgər və zabitlərin xidmət şəraitinin daim diqqətdə saxlanılması, maddi-texniki təminatın gündən-günə daha da yaxşılaşdırılması hər birimizdə qürur hissləri ilə bərabər, əminlik yaradır. Çətin dağlıq şəraitdə yerləşən hərbi hissələrdə xidmət edən əsgərlər torpaqlarımızı etibarlı qoruyur. Güclü maddi-texniki təminat və xalq-ordu birliyi hərbi qulluqçuların döyüş əzmini daha da artırır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri dəfələrlə muxtar respublikanın hakim yüksəkliklərində xidmətin təşkili və şəxsi heyətin məişət şəraiti ilə, buradakı vəziyyətlə maraqlanıb. İyulun 30-da Ali Məclisin Sədri növbəti dəfə Batabat bölgəsindəki hərbi hissələrdə xidmətin təşkili və şəxsi heyətin məişət şəraiti ilə maraqlanıb. ***"Vətən o zaman vətən olur ki, o həm qorunur, həm də vətən torpağından səmərəli istifadə olunur"***, – deyən Ali Məclisin Sədri bildirib ki, vətən torpağının qorunması, eyni zamanda torpaqlardan səmərəli istifadə olunması bu gün ölkəmizin vətəndaşlarının və ordunun üzərinə düşən vəzifələrdir. Çünki sərhədlərimiz qorunursa, insanlar da öz vəzifələrini, işlərini rahat yerinə yetirə biləcəklər, öz zəhmətləri ilə ölkəmizin inkişafına töhfə verəcəklər. Əsgərlər xidməti vəzifələrini uğurla yerinə yetirdiklərinə görə bu ərazilərdən səmərəli istifadə olunur. Xidmət olunan ərazilərdə heyvandarlar və arıçılar üçün əlverişli şərait vardır. Onlar burada rahat və təhlükəsiz şəkildə təsərrüfatları ilə məşğul olurlar. Birgə fəaliyyətin nəticəsi olaraq isə ölkəmiz abadlaşır, inkişaf edir.

Bu gün sərhədlərdə xidmət üçün zəruri olan hər bir şərait yaradılıb. Postlar ərazinin strateji əhəmiyyəti nəzərə alınaraq yerləşdirilib, lazımi yerlərdə müxtəlif mühəndis-istehkam qurğuları və maneələr yaradılıb, ön xəttin müdafiə qüdrəti xeyli gücləndirilib. Dayaq məntəqələri və postlar arasında yol və dayanıqlı rabitə əlaqələri yaradılıb, onların hər biri müasir döyüş texnikaları, artilleriya qurğuları ilə və atıcı silahlarla təmin olunub. Müşahidə zonasının daimi nəzarətdə saxlanması təmin edilib. Müasir müşahidə cihazları vasitəsilə qarşı tərəfin mövqeləri istənilən hava şəraitində müşahidə olunur.

Maddi-texniki təminatla yanaşı, yüksək dağlıq şəraitində xidmət keçən şəxsi heyətin döyüş hazırlığına da diqqət yetirilir. Təmas boyunca etibarlı əməliyyat mövqeyinin təmin edilməsi, hərbi intizamın daim möhkəmləndirilməsi, şəxsi heyətin peşəkarlığının artırılması diqqətdə saxlanılır, əsgər və zabitlər xidməti vəzifələri şərəf və ləyaqətlə yerinə yetirirlər.

Bu gün sərhədlərin etibarlı qorunması insanlara arxayınlıq, Batabat yaylaqlarına isə yeni həyat bəxş edib. Məhz buna görədir ki, yay aylarında obalara köç edənlərin sayı hər ötən il daha da artır. Hazırda yaylaqlarda Şərur rayonunun Dizə, Babək rayonunun Cəhri, Gülşənabad, Şıxmahmud, Kəngərli rayonunun Çalxanqala, Xok və digər kəndlərindən olan 30-a yaxın ailə heyvandarlıqla məşğul olur. Ümumilikdə, onların təsərrüfatında 10 mindən artıq xırdabuynuzlu heyvan və mindən artıq iribuynuzlu mal-qara saxlanılır. Onlar düşmənin, necə deyərlər, bir addımlığında yerləşən Batabat yaylaqlarında rahat yaşayırlar. Səbəb isə, ümumilikdə, muxtar respublikada etibarlı müdafiə sisteminin qurulması, hərbi təhlükəsizliyin təmin olunması, yüksək döyüş hazırlığına malik Əlahiddə Ümumqoşun Ordunun strateji yüksəkliklərə tam nəzarət etməsidir.

**✍ Rauf ƏLİYEV**

*Dünən Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Azərbaycan Respublikasının Əməkdar artisti, Prezident təqaüdçüsü Xəlil Hüseynovun anadan olmasının 70 illiyi ilə bağlı tədbir keçirilib.*

# Tanınmış aktyorun 70 illik yubileyi qeyd edilib

Tədbiri Naxçıvan Muxtar Respublikasının Mədəniyyət və Turizm nazirinin müavini, sənətşünaslıq üzrə fəlsəfə doktoru Natəvan Qədimova açaraq Naxçıvan teatr sənətinə dəyərli töhfələr vermiş Xəlil Hüseynovu təbrik edib və ona cansağlığı, yeni yaradıcılıq uğurları arzulayıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov çıxış edərək bildirib ki, teatr sənəti sahəsində səmərəli fəaliyyət göstərən Xəlil Hüseynovun əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. İstedadlı aktyor 2000-ci ildə Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti, 2006-cı ildə Azərbaycan Respublikasının Əməkdar artisti fəxri adlarına layiq görülüb. Xəlil Hüseynov 2005-ci ildə Prezident mükafatçısı olub, 2008-ci ildən isə Prezident təqaüdçüsüdür. Xəlil Hüseynov bu gün də Naxçıvan teatrının inkişafı üçün dəyərli xidmətlər göstərir, səhnəmizdə yaddaqalan obraz və personajlar yaradır, öz zəngin təcrübəsini gənc aktyorlarla bölüşür.

Sonra çıxış edən Mədəniyyət və Turizm nazirinin müavini, sənətşünaslıq üzrə fəlsəfə doktoru Natəvan Qədimova yubilyarın sənət yolundan, Naxçıvan teatrının inkişafındakı xidmətlərindən söhbət açıb. Qeyd olunub ki, Xəlil Hüseynov yarım əsrdən çoxdur, teatr sənətimizə xidmət edir. Teatr sənətinə xalq teatrının səhnəsindən başlayan tanınmış aktyor sonralar Naxçıvan teatrında müxtəlif səpkili və taleli obrazlar yaradıb. Onun Nazim Hikmətin "Qəribə adam" pyesində İsmayıl, Cəfər Cabbarlının "Aydın" əsərində Balaxan, Anarın "Sizi deyib gəlmişəm" pyesində Məmmədhəsən, Nəriman Həsənzadənin "Atabəylər" pyesində Memar Əcəmi, "Pompeyin Qafqaza yürüşü"ndə Feofan, Hüseyn Cavidin "İblis" faciəsində İxtiyar, "Afət" dramında Xandəmir, "Səyavuş" əsərində Piran, İlyas Əfəndiyevin "Hökmdar və qızı" pyesində Mirmöhsün ağa, Səməd Vurğunun "Fərhad və Şirin" dramında Azər baba, Kəmalənin "Məhsəti" pyesində Pərvər baba, İslam Səfərlinin "Göz həkimi" pyesində Şahbazov və başqa çoxsaylı obrazları aktyorun yaradıcılıq imkanlarının genişliyini, səhnəyə məhəbbət və tələbkarlığa yanaşdığını göstərir. Xəlil Hüseynov bu obrazları sevə-sevə yaradıb və tamaşaçıya sevdirib. Bu obrazlar aktyora tamaşaçı alqışı və sevgisi qazandırıb.

Tədbirdə Azərbaycan Respublikasının Xalq artisti Kamran Quliyev, Naxçıvan Dövlət Musiqili Dram Teatrının direktoru, Xalq artisti Rza Xudiyev, Xalq artistləri Rövşən Hüseynov, Həsən Ağasoy, Şirzad Abutalıbov, Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Səməd Canbaxşıyev, teatrın gənc aktrisası Nurbəniz Niftəliyeva, aktyor Zakir Fətəliyev çıxış edərək sənət dostlarına cansağlığı, yaradıcılıq uğurları arzulayıblar.

Sonda Azərbaycan Respublikasının Əməkdar artisti, Prezident təqaüdçüsü Xəlil Hüseynov muxtar respublikamızda teatr sənətinə göstərilən dövlət qayğısından danışıb, yubileyinin qeyd edilməsi, ona göstərilən diqqət və qayğı üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını ifadə edib, bundan sonra da teatr sənətimizin inkişafı üçün çalışacağını bildirib.

**Əli RZAYEV**

# Naxçıvan Musiqi Kollecinin 40 illik yubileyi münasibətilə Kəngərli rayonunda konsert təşkil olunub



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 29 mart 2015-ci il tarixli "Naxçıvan Musiqi Kollecinin 40 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamı ilə təsdiq edilmiş Tədbirlər Planına uyğun olaraq, Naxçıvan Musiqi Kollecinin musiqi kollektivlərinin muxtar respublikanın şəhər və rayonlarında konsertləri keçirilir. Belə konsertlərdən biri də Kəngərli Rayon Mədəniyyət Evində təşkil olunub.

Konsert başlanmazdan əvvəl Naxçıvan Musiqi Kollecinin direktoru Həsən Seyidov çıxış edərək "Naxçıvan Musiqi Kollecinin 40 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamın Naxçıvan musiqiçilərinin sevincinə səbəb olmaqla onların gələcək fəaliyyətinə böyük qayğının ifadəsi olduğunu qeyd edib. Bildirilib ki, Naxçıvan Musiqi Kolleci 1975-ci ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılıb. 1975-1992-ci illərdə Naxçıvan Orta İxtisas Musiqi Məktəbi, 1992-2005-ci illərdə Naxçıvan Musiqi Texnikumu, 2005-ci ildən isə Naxçıvan Musiqi Kolleci kimi fəaliyyət göstərir. Musiqi sahəsi üzrə kadrların hazırlanması məqsədilə yaradılan bu təhsil müəssisəsi 4 ixtisas üzrə fəaliyyətə başlayıb. Hazırda kollecdə 11 ixtisas üzrə 552 tələbə təhsil alır. Bu tələbələrin təlim-tərbiyəsi ilə 181 müəllim və konsertmeyster məşğul olur. 1975-ci ildən ötən dövr ərzində Naxçıvan Musiqi Kollecinin 2500-dən çox məzunu olub. Vurğulanıb ki, kollecin məzunlarından 60-a yaxını Kəngərli rayonundandır və onlar burada fəaliyyət göstərən uşaq musiqi məktəblərinin müəllimləridir. Hazırda kollecdə Kəngərli rayonundan 11 tələbə təhsil alır.

Sonra konsert olub. İlk olaraq simfonik orkestr Ü.Hacıbəylinin "Uvertüra"sını ifa edib. Qədim alətlər ansamblının müşayiəti ilə Əbülfəz Məmmədov və Səid Həsənov "Şur" kompozisiyasını təqdim ediblər. "Dilruba" muğam ansamblının, estrada orkestrinin və "Naxçıvanqala" ritm qrupunun müşayiəti ilə Əbülfəz Məmmədovun, Samir İsmayılovun, akkordeonda Sahil Qasımovun, balabanda Mübariz Əliyevin və vokal qrupunun ifaları tamaşaçılarda xoş ovqat yaradıb. Qeyd edək ki, musiqi kollektivlərinə Səməd Əsgərov, Cəlil İsmayılov və Mustafa Məmmədov bədii rəhbərlik ediblər.

Konsert proqramının sonunda solistlərdən Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Elçin Nağıyev və İlkin Abdullayevin ifaları alqışlarla qarşılanıb.

**Sara ƏZİMOVA**

*Azərbaycanda idman siyasətinin düzgün qurulduğunu bu sahədə qazanılmış uğurlu nəticələr təsdiqləyir: ölkəmizdə beynəlxalq səviyyəli yarışlar təşkil olunur, idmançılarımız hər il müxtəlif idman növləri üzrə keçirilən Avropa və dünya çempionatlarında yüksək nəticələr göstərirlər. Azərbaycan Prezidenti cənab İlham Əliyevin bu yarışları izləməsi, idmançılarımıza mənəvi dəstək olması, onları ruhlandırması da vacib amillər kimi vurğulanmalıdır.*

# Şərurda idmanın kütləviliyinə diqqət artırılır

Son illər muxtar respublikamızda da aparılan idman siyasəti özünü qabarıq şəkildə büruzə verməkdədir. Bu baxımdan cari ilin ilk 7 ayı ərzində Şərur Rayon Gənclər və İdman İdarəsinin gördüyü işləri qənaətbəxş hesab etmək olar. İdarənin rəisi Ramil Dadaşov bizimlə söhbətində dedi ki, Gənclər və İdman İdarəsinin məqsədi Şərur rayonunda bütün idman növlərinə marağı artırmaq, həmçinin istedadlı idmançıları üzə çıxarmaqdır. Artıq bir çox yarışlarda perspektivli uşaqlar seçilib və onlarla mütəmadi olaraq məşqlər aparılır.

"7 ay ərzində Şərur rayonunda keçirilən yarışlarda iki minə yaxın uşaq, yeniyetmə və gənc iştirak edib", – deyən Ramil Dadaşov iştirakçıların kollektiv idman növünə olan marağından da bəhs etdi: "Fərdi idman növləri ilə yanaşı, iştirakçıları kollektiv növlərə cəlb etmək üçün daim turnirlər təşkil edilir. Bu müddət ərzində Gənclər və İdman İdarəsi kəndlərdə futbol, mini-futbol, basketbol və voleybol yarışları keçirib. Bu yarışlarda çoxlu uşaq, yeniyetmə və gənc iştirak edib. Fərdi növlərdən isə boks, güləş, şahmat, kikboksinq və yüngül atletika üzrə rayon birincilikləri təşkil olunub".

İdarə rəisi mütəmadi olaraq rayon Təhsil Şöbəsi ilə Gənclər və İdman İdarəsinin birgə keçirdiyi yarışlar barədə də məlumat verdi: "Mart ayında Təhsil Şöbəsi ilə birgə voleybol üzrə məktəblər arasında rayon birinciliyi təşkil edilib. Həmçinin yanvar ayında şahmat, aprel ayında məktəblilər arasında "Vətənin müdafiəsinə hazıram" çoxnövçülük üzrə rayon birinciliyi və mini-futbol üzrə birincilik keçirilib. Hər iki qurumun birgə təşkil etdiyi birinciliklərdə 350-yə yaxın məktəbli iştirak edib".

"Daha hansı yarışlara üstünlük vermisiniz?" sualına Ramil Dadaşovun cavabı belə oldu: "İlin ilk iki ayında Gənclər və İdman İdarəsi şahmat, voleybol, futzal üzrə rayon birinciliklərini təşkil edib. Mart ayında isə Şərur və Sədərək boksçuları arasında yoldaşlıq görüşü, yüngül atletika, basketbol, şahmat, sərbəst güləş və voleybol üzrə rayon birincilikləri keçirilib. Son olaraq isə iyun ayında futbol üzrə kəndlər arasında birincilik baş tutub ki, bu yarışda 27 komandada 400-ə yaxın futbolçu mübarizə aparıb".

Son illər Şərur rayonunda idmanın yüksəlişdə olduğunu diqqətə çatdıran Ramil Dadaşov onu da vurğuladı ki, qarşıdakı aylarda məqsədləri idmanın bütün növlərini kütləvi hala gətirməkdir: "Hazırda keçirəcəyimiz yarışlarla bağlı işlərimizi davam etdiririk. Məqsədimiz Şərur rayonunda daim müxtəlif idman yarışları təşkil etmək və gəncləri bu sahəyə cəlb etməkdir. Bunun üçün hər bir imkan yaradılıb və bundan maksimum istifadə etməyə çalışırıq".

**Ceyhun MƏMMƏDOV**

***Gündən-günə gözəlləşən muxtar respublikamızda yeni salınmış meşə zolaqları yurdumuzun füsunkar simasına əlavə çalarlar qatıb. Məhz təbiətə xüsusi gözəllik bəxş edən bu meşələri hamılıqla qoruyub saxlamalı və hər əkilən ağaca qayğı göstərməliyik. İsti yay günlərində ehtimalı daha çox olan və meşələrin sıradan çıxmasına səbəb olan xoşagəlməz hadisələrdən biri də yanğınlardır.***



# Meşələri yanğından qorumaq hər kəsin vətəndaşlıq borcudur

Yanğınların qarşısının alınmasında aidiyyəti dövlət orqanları ilə yanaşı, vətəndaşların da üzərinə çox mühüm vəzifələr düşür. Qeyd edək ki, külli miqdarda ziyanla qurtaran yanğın hadisələrinin baş verməməsi üçün yay mövsümündə qabaqlayıcı tədbirlərin aparılmasına daha çox diqqət yetirilməlidir. Çünki bu gün hər bir insan bilavasitə və ya dolayı yolla meşələrlə əlaqədə olur, onun sərvətlərindən bəhrələnir. Meşələr onunla təmasda olan insanları baharda əlvan çiçəklərin ətri, yayda əsrarəngiz təbiəti, payızda zəngin rənglər ümmanı, qışda sirli dünyası ilə məftun edir. Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə tərtib edilmiş tədbirlər planına uyğun olaraq, muxtar respublika ərazisində yerləşən meşələrdə, meşəətrafı otlaq sahələrdə vətəndaşlar tərəfindən yanğın təhlükəsizliyi qaydalarına əməl olunması məqsədilə maarifləndirmə və profilaktik tədbirlər həyata keçirir.

Meşə təsərrüfatında yanğın təhlükəsizliyinə məsul olan şəxslər yanğın təhlükəsizliyi qaydalarına riayət olunmasına nəzarət məqsədilə meşə sahələrinə və zolaqlarına vaxtaşırı baxış keçirməli, yanğın baş verən zaman yanğınsöndürmə xidmətinin hadisə yerinə çağırılması üçün tədbirlər görməli, yanğının söndürülməsi üçün mövcud vasitələri təşkil etməlidirlər.

Meşə sahələrində 10 yanğından 9-u odla ehtiyatsız davranmadan və ya meşədə iş və istirahət zamanı insanların yanğın təhlükəsizliyi qaydalarını pozmasından baş verir. Xüsusi olaraq qeyd etmək lazımdır ki, meşədə və ya meşəətrafı sahələrdə yandırılmış tonqallar və bu tonqalların tam söndürülmədən nəzarətsiz qoyulması kütləvi meşə yanğınlarına səbəb olur. Söndürülməmiş kibritin, siqaret kötüyünün meşəyə atılması, maşınların mühərrikindən qopan qığılcımlar da yanğın törədir. Meşələrə sürtgü yağı, benzin, ağ neft, dizel yanacağı və digər yanar mayelərlə bulaşmış materialları atmaq olmaz. Meşədə torf və bitki köklərinin yandırılması yanğın təhlükəsizliyi cəhətdən yolverilməzdir. Meşədə istirahət edən insanlar tərəfindən şüşə qabların, şüşə qırıntılarının meşəyə atılması qadağandır. Əks halda, Günəş şüasının təsirindən şüşə qablar və qırıntılar yanğın ocaqlarının yaranmasına səbəb ola bilər.

Müəyyən olunmamış yerlərdə avtomobil, traktor və digər daxiliyanma mühərrikli aqreqatların yanacaqla doldurulması, eləcə də onların yaxınlığında siqaretin çəkilməsi, tonqal yandırılması yanğın təhlükəli olduğundan yolverilməzdir. Yanğın təhlükəsi olan meşə sahələri, meşə yolları və digər torpaqlarla həmsərhəd olan sahələr yanğın əleyhinə 2-3 metr enində şumlanmalı, meşənin quru ot və odun qalıqlarından təmizlənməsi təmin edilməli, meşənin ərazisində yerləşdirilən hər hansı tikilinin ətrafı 15 metr radiusunda şumlanmalı və ya yanğına qarşı minerallaşdırılmış zolaqlarla təmin edilməlidir.

Havaların isti keçməsi meşələrin yanğın təhlükəsini daha da artırır. Məhz buna görə cavabdeh şəxslər tərəfindən vaxtaşırı olaraq meşədaxili və ətraf sahələr yoxlanılmalı və daim diqqət mərkəzində saxlanılmalıdır. Yanğın və alışma hadisəsi baş verən zaman mövcud əlaltı odsöndürücü vasitələrdən istifadə edilməlidir. Hər bir vətəndaş bilməlidir ki, yanğın təhlükəsizliyi qaydalarına riayət etməklə o, ölkəmizin iqtisadiyyatının inkişafına və vətəndaşlarımızın sağlamlığına xidmət etmiş olar.

*Hər hansı bir yanğın hadisəsi baş verərsə, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin* ***"112"*** *qaynar telefon xəttinə və ya Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin şəhər-rayon Dövlət Yanğın Təhlükəsizliyi şöbələrinin* ***"101"*** *nömrəli xidməti telefonlarına zəng etməyi unutmayın.*

**Mirtaleh SEYİDOV**
*Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşı, daxili xidmət kapitanı*


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Rauf Əliyev
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 617